AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

# RİSALƏ

*Araşdırmalar toplusu*

# 12



**Bakı – "Elm və təhsil" – 2016**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi*
*Elmi Şurasının 15 sentyabr 2016-cı il tarixli (protokol № 7)*
*qərarı ilə çap olunur*

***Redaktor:*** AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru,
professor
**Rafael HÜSEYNOV**

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya elmləri doktoru, professor**
**Xatirə Bəşirli, filologiya elmləri doktoru**
**Şəfəq Əlibəyli, filologiya elmləri doktoru**
**Aida Qasımova, filologiya elmləri doktoru, professor**

**Məsul katib:**
**Kəmalə Nuriyeva**

**Risalə. Araşdırmalar toplusu. 12-ci kitab**
**Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2016, 212 səh. Şəkilli**

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin beş topludan ibarət elmi-tədqiqat "Xəmsə"sinə ["Şərq" (Tərcümə toplusu), "Məclis" (Mərasimlər toplusu), "Xəzinə" (Kataloqlar toplusu), "Qaynaq" (Mənbələr toplusu)] daxil olan "Risalə" Araşdırmalar toplusunun bu sayı akademik Rafael Hüseynovun rəhbəri olduğu gənc alimlərin məqalələrindən tərtib edilmişdir. Məqalə müəllifləri arasında elmlər doktorları, fəlsəfə doktorları da var, dissertasiya müdafiəsinə hazırlaşan cavan tədqiqatçılar da. Akademik Rafael Hüseynovun elmi məktəbinin təmsilçiləri olan bu araşdırıcılar Azərbaycan klassik və müasir ədəbiyyatının bir sıra aktual və az öyrənilmiş problemlərinə yeni görüş bucağından yanaşırlar.

**© AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2016**

**Nərminə ƏLİYEVA**
**AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**

**Açar sözlər:** Saqib poeziyası, ictimai-siyasi-motiv, zəmanədən şikayət, milli şüur, mənəvi-əxlaqi dəyər

**Key words**: poetry of Sagib, political motives, complaint at the time, national identity, moral and ethical values

**Ключевые слова**: поэзия Сагиба, общественно-политические мотивы, жалоба на время, национальное самосознание, морально-нравственные ценности

## HAŞIM BƏY SAQİB VƏ ONUN YARADICILIĞINDA İCTİMAİ-SİYASİ MOTİVLƏR

Azərbaycan tarixinin ən ziddiyyətli və mürəkkəb dövrü olan XIX əsrin sonu, XX əsrin əvvəllərində baş verən gərgin ictimai-siyasi hadisələr, tarixi proseslər: çarın müstəmləkəçilik siyasəti, Xalq Cümhuriyyətinin yaranması və süqutu, sovet hakimiyyətinin bərqərar olması tarixlə bilavasitə bağlı olan ədəbiyyatda da izsiz ötüşmədi. Xüsusilə "XX əsrin əvvəllərində Azərbaycan ictimai həyatında olduğu kimi, ədəbiyyatda da həm şəkil, üslub, həm də məzmun və keyfiyyətcə böyük dəyişiklik əmələ gəldi. Şair və ədiblər köhnə, ənənəvi mövzulardan aktual ictimai-siyasi mövzulara keçdilər, günün zəruri məsələləri və zəhmətkeşlərin taleyi ilə yaşamağa başladılar" [1, 51].

Ümumiyyətlə, ədəbiyyat həmişə cəmiyyəti, onun həyatında baş verən ictimai-siyasi prosesləri əks etdirmək nöqteyi-nəzərindən digər sənət növlərindən fərqlənmişdir. Müəyyən dövrlərdə baş verən tarixi prosesləri, xalqın həyatını, məişətini öyrənmək baxımından ədəbiyyat, xüsusilə də ictimai-siyasi motivli əsərlər müstəsna əhəmiyyət kəsb etmiş, əvəzsiz mənbə rolunu oynamışdır. Lakin çox təəssüf ki, bu fikirləri heç də bütün ədəbi əsərlər haqqında demək mümkün deyil. Xüsusilə Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra hakim ideologiyanın tələbləri əsasında yazılmış, məddahlıqla dolu, reallığı əks etdirməyən bir çox əsərlər əksər halda yalnız yazıldıqları dövr üçün aktual olmuş, bu gün isə öz tarixi və bədii dəyərini çoxdan itirmişlər.

Cəmiyyətdə gördüyü yaramazlıqlar, əyintilər, neqativ reallıqları açıq-aşkar deyə bilmək, əsərinin mövzusu etmək sənətkardan yüksək ustalıqla bərabər cəsarət də tələb edirdi. Və hamımıza məlumdur ki, bütün dövrlərdə olduğu kimi, məlum sovet rejimində də bu cəsarəti özündə tapanlar daim təqib və təzyiqlərə məruz qalmış, "xalq düşməni" adı ilə damğalanmış, ya da əsərlərinin nəşrinə icazə verilməyərək bir sənətkar kimi unudulmağa məhkum edilmişlər. Bütün bunlara baxmayaraq, yaradıcılığında ictimai-siyasi məsələlərə geniş yer verən Azərbaycan ədəbiyyatının görkəmli və fədakar şəxsiyyətlərindən biri də dövrünün tanınmış şairi, ruhani, publisist, xeyriyyəçi, tacir, Bakıda fəaliyyət göstərən "Məcməüş-şüəra" ədəbi məclisinin üzvü olmuş Haşım bəy Saqib idi.

Ədəbi fəaliyyəti XIX əsrin sonlarından XX əsrin 30-cu illərinə qədər olan dövrü əhatə edən Saqibin yaradıcılığı, poeziyası ilə tanış olmazdan əvvəl yaşadığı sosial və ədəbi mühitə nəzər salmaq daha məqsədəuyğun olardı. İnsan

şəxsiyyətinin formalaşmasında onu əhatə edən mühit, ünsiyyətdə olduğu şəxslər, şahidi olduğu tarixi proseslər müstəsna əhəmiyyətə malikdir. Çünki "insanın mənəviyyatı, bir tərəfdən genetik əsaslara malik olsa da, əsasən sosial-mənəvi mühitin təsiri ilə formalaşır. Burada cəmiyyətin mədəni-mənəvi həyatı, insanın yetişdiyi mühitin kulturoloji aspektləri mühüm rol oynayır" [2].

Doğrudan da, Saqibi əhatə edən mənəvi, ədəbi, tarixi mühit onun bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynamışdır.

Haşım bəy 1870-ci ildə Bakının Buzovna kəndində tanınmış ruhani, ziyalı və tacir olan Hacı bəy Heybət oğlunun ailəsində doğulmuşdur. Şair haqqında olan xatirələrdə oxuyuruq: "Haşım bəyin mənsub olduğu Heybətbəyovlar nəsli Buzovna kəndinin qədim ziyalı, xeyriyyə işləri ilə məşğul olan nəsillərindən biri kimi təkcə Bakıda deyil, o cümlədən Azərbaycanda, İranda, Türkiyədə, hətta Avropanın İsveçrə, Fransa, Almaniya kimi ölkələrində də tanınmışlar. Bu nəslin övladları Bakı xanları sarayına yaxın olmuş, içərişəhərli Mənsurovlar, Mirbabayevlər, xiləli, ramanalı, balaxanılı Əsədullayevlər, Muxtarovlar və Mayılovlar nəsli ilə dostluq etmişlər" [3, 63].

Atasından və onun yaxın dostu Kərbəlayi Əziz İmaməliyevin təsis etdiyi mədrəsədə təhsil alan Haşım bəy ərəb, fars, türk, özbək, cığatay, rus dillərini və ədəbiyyatını, İslam, şəriət və ilahiyyat tarixini də öyrənmişdir. Quranı oxuyub başa çıxmış, Azərbaycan klassikləri: Xaqani, Nizami, Xətai, Füzuli ilə bərabər Şərqin böyük dühaları Cami, Firdovsi, Hafizin ədəbi irsi ilə də dərindən maraqlanmışdır.

Bakıda yaranmış XIX əsrin 80-ci illərindən 1915-ci ilədək fəaliyyət göstərmiş "Məcməüş-şüəra" ədəbi məclisi də Haşım bəyin yaradıcılığında böyük iz qoymuş, onun bir şair kimi püxtələşməsində əvəzsiz rol oynamışdır. Publisist kimi də fəaliyyət göstərmiş şairin "Yeni yol", "İqbal", "Qızıl qələm" qəzetlərində, "Maarif və mədəniyyət" jurnalında əsərləri nəşr olunmuşdur.

C.Cabbarlı, M.Müşfiq, Ağasəlim Fədai, S.Ruhulla, C.Qaryağdıoğlu, H.Ərəblinski və bu kimi bir çox görkəmli şəxslərlə dostluq etməsi, həmsöhbət olması Saqibin bir şəxsiyyət və sənətkar kimi cəmiyyətdə, ədəbi mühitdə mövqeyinin aydın göstəricisidir.

"Azəri kişvərinün şairiyəm…" şeirində özü haqqında məlumat verən şair deyir:

**Namımız Haşimdür, leyk təxəllüs Saqib,**
**Bildirübdür özin ədna ilə həm əlayə** [4, 416].

Ərəbcədən tərcümədə "çox parlaq, nurlu, işıqlı" anlamını verən Saqib təxəllüsünü götürən sənətkar, doğrudan da, işıqlı əməl sahibi olmuş, xeyriyyəçilik etmiş, açdığı mədrəsələrdə pulsuz Quran dərsləri vermişdir. Arvadı maarifpərvər bir qadın olan Xoşsima xanım da bu nəcib işdə həyat yoldaşından geri qalmamış, hər zaman ona fəal yardımçı olmuşdur.

**Azəri kişvərinün şairiyəm bimayə,**
**Füqəradür mana başdan-əyağə həmsayə.**
**Açmısan çoxlarına lütf ilə ehsan əlini,**
**Çox təəccüb eləmə, Hatəmə salson sayə** [4, 416].

Cəmiyyətin inkişafında elmin, təhsilin rolunu xüsusi qiymətləndirən və dörd qız atası olan Saqib övladlarının təhsil alması üçün hər cür şərait

yaratmışdır. İki qızı – Rübabə və Ruqiyyə tibb işçiləri olmuş, digər qızı Nuriyyə isə Moskva Xalq Yaradıcılığı Texnikumunda təhsil almışdır. Sonuncu övladı Azərbaycan teatr səhnəsi və kinosunun məşhur aktrisası Nəcibə xanım Məlikova idi. Övladları ilə bərabər 4-5 yaşlarından arvadı Xoşsima xanımın xahişi ilə himayəyə götürdüyü qaynı Ruhulla Axundovun da mükəmməl təhsil alması üçün heç bir məsrəfdən çəkinməmişdir (görkəmli ziyalı və dövlət xadimi olan R.Axundov 1937-ci il repressiyasının qurbanı olmuş , həbs olunaraq öldürülmüşdür).

**Qızımun birsi gedüb Mosqvaya dərs oxıyur,**
**Dayısı Ruhullah ilən ta mana salsun sayə.**
**İksi də burda oxur, xərcinə tabim yoxdur,**
**Qorxuram namusum əldən gedə axir zayə** [4, 416].

Tərəqqipərvər, maarifçi şəxs olan şairin sonuncu misraları dövrünün hələ də elm öyrənməyi, təhsil almağı namussuzluq hesab edən, nəinki qızlarını, heç oğlanlarını da məktəbə göndərməyən həmvətənlərinə, onları bu cür düşünməyə vadar edən yalançı vaizlərə istehzası idi.

Ailəsi haqqında geniş məlumat aldığımız bu şeirdə həm də şairin bir insan kimi zəngin daxili aləmi, mənəviyyatı ilə də tanış oluruq.

**Kişiyəm, türkdür əslim, nə farsam, nə ərəb,**
**Əgərəm baş nə şəhü xanə, nə də ağayə** [4, 416].

Bütün ömrünü şərəf və ləyaqətlə yaşayan, nəcib, qorxmaz bir insan kimi yaddaşlarda qalan Saqib 1931-ci ildə vəfat etmiş və Bibiheybət qəbiristanlığında dəfn olunmuşdur.

İncə, zərif, həssas, kövrək duyğularla yanaşı, cəsarət, ləyaqət və qürür hissini də özündə ehtiva edən Saqib poeziyası həm ictimai-tarixi əhəmiyyəti, həm janr, mövzu baxımından hərtərəfli və çoxşaxəlidir. Klassik Şərq poeziyasının ənənələri əsasında yazdığı əsərlər – qəzəllər, növhələr, rübailər, mərsiyələr və s. sənətkarın ustalığından xəbər verir. Digər tərəfdən həyat həqiqətlərinə satira güzgüsündən baxması da şairin yenilikçi ruhunun aydın təzahürüdür.

Azərbaycan şifahi və yazılı ədəbiyyatı əsasında formalaşan özünəməxsus düşüncə tərzi əsərlərinin ideya-bədii təsir gücünü artırır. Təkcə Azərbaycan ədəbiyyatı klassiklərinin deyil, Hafiz, Cami, Firdovsi kimi sənətkarların da yaradıcılığına bələd olması, Şərq mədəniyyəti qaynaqlarından bəhrələnməsi, Quranı mükəmməl bilməsi və əsərlərində onlardan tez-tez iqtibas gətirməsi Saqib poeziyasının daxili ideya zənginliyi haqqında aydın təsəvvür yaradır. Mövzu dairəsi geniş olan bu poeziyada biz müxtəlif – məhəbbət, ictimai-siyasi, dini mövzuda yazılan əsərlərlə tanış oluruq.

İncə lirizmi, Allaha, müqəddəslərə dərin sevgisi, insanlara, xalqına sonsuz məhəbbətini əks etdirən bu əsərlər şairi bir insan kimi də xarakterizə edir.

Saqib poeziyasının böyük bir qismini məhəbbət lirikası təşkil edir. “Şairin qəzəllərində məhəbbət, eşq ayrıca məna kəsb edir. O öz qəzəllərində ülvi hisslər aləminin dərinliklərindən doğan hicran dərdi, vüsal həsrətini daha qabarıq təsvir edir” [5].

Məhəbbət lirikası hər bir şairə öz poetik imkanlarını, fikirlərini, duyğu və düşüncələrini tamamilə sərgiləmyə imkan verirsə də, ictimai-siyasi lirikada bu imkan bir qədər məhdudlaşır. Yaşadığı dövrün həqiqətlərini, xüsusilə şikayət və narazılıqlarının bədii təcəssümünü vermək, həm də bunu sənət əsərinə çevirmək sənətkardan ustalıq, yüksək poetik ruhla bərabər cəsarət də tələb edirdı. Və bu mənəvi dəyərlərə malik olması Saqib irsinin ideya-bədii dəyərini artırır, vətəndaş mövqeyini ortaya qoyurdu. Saqib poeziyasının əhəmiyyəti onun bugünlə səsləşməsi, öz mahiyyətini itirməməsi, bədii və tarixi dəyərini indi də qoruyub saxlaya bilməsindədir. Bədii ifadə tərzi, xalq yaradıcılığına və klassik poeziya ənənələrinə bağlılıq, humanist fikirlərin, cəmiyyətin problemlərinin bədii təqdimi, dini xurafatın tənqidi onun yaradıcılığının əsas xüsusiyyətləridir.

Onun ictimai-siyasi səciyyə daşıyan şeirlərində klassik poeziyaya xas olan mücərrədlik yox, konkret hadisələrin bədii təsviri əsas yer tutur. Şair konkret faktlarla, bəzən də ümumiləşdirmələrlə zəmanədən, dövrdən şikayətinin səbəbini göstərir. Və bu ifadə tərzi realist ədəbiyyatın görkəmli nümayəndəsi Vaqifin "Bax" qəzəlini, "Görmədim" müxəmməsini bizə xatırladır.

Milli ləyaqət hissini oyatmaq, milli şüuru yüksəltmək, ictimai həyata şüurlu münasibəti formalaşdırmaqda poeziyanın əvəzsiz rolunu başa düşən bir çox müasirləri kimi, Saqib də bundan yararlanmağa çalışmış, xalqının ictimai-mədəni tərəqqisini ictimai həyata şüurlu münasibətdə görmüş və bu münasibəti formalaşdırmaqdan ötrü bütün ömrü boyu yorulmadan çalışmışdır. "Poeziyanın ədəbi mövzuları sırasına daxil olan milli mənəvi dəyərlər, xalqın yaddaşı və tarixin ibrət dərsləri, mühüm tarixi total hadisələr və bunların xalqın taleyində buraxdığı izlər və digər məsələlər" [6, 10] şairin yaradıcılığında əhəmiyyətli yer tutmuşdur.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra yaranan ictimai-siyasi motivli şeirlər daha çox sovet ideologiyasına xidmət etdiyindən, dövrün tələblərinə uyğun yazıldığından bu gün öz əhəmiyyətini itirmişdir və əlbəttə ki, "köksüz, ənənəsiz poeziya olmadığı kimi, öz mövcudiyyətini hansı bir dövrdəsə başa vurub qurtaran, gələcəyə yönəlməyən poeziya da təsəvvürolunmazdır" [7, 9].

Ancaq Saqib poeziyasının üstünlüyü ondadır ki, onun toxunduğu mövzular, qələmə aldığı problemlər bu gün də öz aktuallığını qoruyur, dövrlə, zəmanə ilə səsləşir. İctimai-siyasi motivli şeirlərinin tənqid hədəfi olan, öz mənafeyi üçün vətənini, xalqını satmağa hazır olan millət xainləri, xeyrini güdən üzdəniraq din xadimləri, insanlıq adına ləkə olan naqis xislətli kəslər bu gün də dövrümüzün utancverici reallıqlarıdır. Məhz bu həmişəyaşarlıq, dövrlə səsləşmə digər klassiklərimiz kimi, Saqib poeziyasının da əhəmiyyətini olduqca artırır.

Onun yaradıcılığında elə bir əsərə rast gəlmək mümkün deyil ki, bugünlə səsləşmir, əhəmiyyətini itirib deyə kənara qoyasan. Yüksək poetik ifadə tərzinə, bədii çalara malik olan bu əsərlər həm də məzmun baxımından dolğun, rəngarəng, cəzbedicidir.

Həssas, lirik duyğular şairi olan Saqib xalqının məşəqqətli həyatına biganə qala bilmirdi. Daim təhqir və təzyiqlərə məruz qalan xalq və onun faciəvi həyatı şairin yaradıcılığında əsas mövzudur. Bu, Saqibin bütün ruhuna hopmuş, onu o qədər düşündürür ki, hətta məhəbbət lirikasında belə ara-sıra beytlərlə bu ictimai kədərini, dərdini dilə gətirir. Xalqının nə vaxtsa haqq səsini

ucaldacağına inanan şair zamanının siyasi proseslərinin, tarixi hadisələrinin real cizgisini yaradır, dövrünün ümumi mənzərəsini gözlərimiz önündə canlandırır.

"Azərbaycanın sovetləşməsi illərində qələmə aldığı "Getdikcə", "Hər kəs öz keyfindədir", "Kim-kimədir", "Ey satanlar vətəni", "Sözün həqiqəti", "Qaldı", "Qalmaz" kimi qəzəllərində və həcvlərində dövrünün haqsızlıqlarını tənqid edən" [3, 6] şair bu quruluşun xalqa xoşbəxtlik gətirmədiyi qənaətini, fikir və düşüncələrini qorxmadan qələmə almışdır.

Zəngin yaradıcılığa malik, dövrünün tanınmış səxsiyyəti, cəmiyyətdə mövqeyi olan belə bir şairin tanınmamasının, əsərlərinin nəşr və təbliğ edilməməsinin, unudulmasının mühüm səbəbi də yaşadığı dövrdə sosializmi tərifləmək, mədh etmək əvəzinə tənqid etməsi idi. Buna görə də "mənfur bolşevizmin, sosializm quruluşu"nun siyasətini ifşa edən əsərlərin müəllifini heç bir naşir vəzifəsi xatirinə nəşr edə bilməzdi" [3, 3].

İctimai-siyasi hadisələri hərtərəfli əks etdirmək baxımından "Kim-kimədir", "Hər kəs öz keyfindədir" şeirləri Saqibin ədəbi irsində əhəmiyyətli bir mövqeyə malikdir. Dövr və zəmanə haqqında fikir və duyğularını bu şeirlərində ümumiləşdirən şair öz vətəndaş mövqeyini ortaya qoymuşdur. İdeya-bədii tutumu cəhətdən yüksək dəyərə malik olan bir çox əsərləri kimi, "Kim-kimədir" şeiri də zamanında məşhur olmuş, dildən-dilə gəzmişdir. Müasirlərinin söylədiyinə əsasən, bu və bunun kimi bir neçə şeirinə görə şair təzyiqlərə məruz qalmışdır.

Saqib yaradıcılığının ən önəmli xüsusiyyəti sözdən məharətlə istifadə, xalq danışıq dilindən gələn ifadə və deyimlərin düzgün seçimidir. Gündəlik həyatımızda işlətdiyimiz sözlər onun şeirlərində yeni bədii çalar qazanmaqla bərabər böyük məna tutumu da kəsb edir. "Kim-kimədir" ifadəsi də bu cəhətdən istisna deyil. Müəyyən bir dövr və zəmanənin aydın təsvirini vermək üçün bu ifadə çox dəqiq və yerində işlədilmiş, özlüyündə dövrünün ümumi abhavasını açıq-aşkar göstərir. İctimai-siyasi hadisələrə şairin ayıq münasibətini aşağıdakı misralar daha aydın ifadə edir.

**Dəgişüb dövrü zəmanə, hərə bir nəğmə oxur,**
**Hökmranlıq eləyür şahə gəda, kim-kimədür?!** [4, 491]

Gədanın şaha hökmranlıq etdiyi bir quruluşda yaxşı və yamanı ayıran, onlara fərq qoyan yoxdur. Dövr və onun ziddiyyətli olayları, hərc-mərclik haqqında şairin düşüncələri, fikirləri həmin illərin siyasi sferasını aydınlatmaq baxımından xüsusilə maraqlıdır.

**Sözün həqqin demə xəlqə əbəs, yox eşidən,**
**Qaranı ağ oxu, ağı qəra, kim-kimədür?!**
**O, sənündür, bu, mənim, keçdi, o günlər keçdi,**
**Varuvı kim aparur, olma riza, kim-kimədür?!** [4, 492]

Cəmiyyət həyatının real gerçəkliyinin əks olunduğu bu əsərdə göstərilir ki, zülmün ərşə dirəndiyi bir dövrdə insanı eşidən, onun şikayətlərini dinləyən heç kimsə yoxdur.

**Börküvi başdan alurlar, hanı imdadə yetən?!**
**Eşidən yox, eləsün ahü-nəva, kim-kimədür?!** [4, 492]

Şikayətin, ah-fəğanın səmərəsiz, faydasız olduğu qənaətinə gələn şair abır-həyanın, ismətin də yoxa çıxdığını bildirir. Nə qədər ki yuxarıda oturanlar bu xalqı düşünməyəcəklər, onun qeydinə qalmayacaqlar, onda bu cür özbaşınalıqlar da zəruri, qaçılmaz olacaqdır. Həqiqət ayaqlar altında tapdanacaq, qan su yerinə axacaqdır və ən acınacaqlısı da budur ki, bunlar heç də təəccüblə qarşılanmayacaq, çünki kim-kimədir.

**Nanəciblər oturub təxti-xilafət üstə,**
**Tökülür seyl kibi xuni-Xuda, kim-kimədür?!**

**Mərdi-baqeyrət özin öldürə, eyb eyləməyün,**
**Öldi sərdəftəri-aləm süfəha, kim-kimədür** [4, 492].

Bu misralarda yaşadığı cəmiyyətin səciyyəvi xüsusiyyətlərini qələmə alan, ürəyi daim xalqına sevgi ilə döyünən, humanist ideallarıın tərənnümçüsü olan şairin gördüyü mənzərə, şahidi olduğu hadisələr qarşısında keçirdiyi ruhi iztirabları duymamaq mümkün deyil.

İnsanları mənəvi yüksəlişdə görmək istəyən, lakin əksini müşahidə edən sənətkarın düşüncələrinin dərin daxili çarpışmasının inikası olan "Hər kəs öz keyfindədür" şeirində də zəmanədən şikayət motivi ön plandadır. Yüksək ideya-bədii məzmuna malik olan bu sənət əsərinin dilinin sadə və anlaşıqlı olması, xalq danışıq dilindən gələn ifadələrə poetik çalar verilməsi onun bədii məziyyətini artırmış, məzmunla formanın gözəl vəhdətini yaratmışdır.

Cəmiyyətin mənəvi aşınmaya məruz qalması, insanların abır-həyanı unudub yaramaz işlərlə məşğul olması müəllifi düşündürür, gördüyü rəzalətlərə, çirkinliklərə biganə qalmayaraq bunları böyük ürək ağrısı ilə qələmə alır. Belə bir mənzərə ilə qarşılaşdığına görə təəssüf hissi keçirdiyini gizlətmir.

**Aləmi tutmış cəhalət, hər kəs öz keyfindədür,**
**Az qalıb olsun Qiyamət, hər kəs öz keyfindədür.**
**Doğruluqdan qalmayub hər kimə birbəbir,**
**Var adı, yoxdur əlamət, hər kəs öz keyfindədür.**
**Xəlqdə qalmub həyadən zərreyicə bir əsər,**
**Günbəgün artur şərarət, hər kəs öz keyfindədür** [4, 492].

Naqislərin ucaldığı, namusluların alçaldığı bir toplumda insanlar əsl insani dəyərləri unudub şərə, yamanlığa meyil edirlər. Onlar dini, imanı bir kənara atıb, insafı, vicdanı bilmərrə unudublar. Yardım etmək, kiminsə qayğısına qalmaq, imdadına çatmaq, sədaqət, etibar kimi dəyərlərin unudulduğu bir cəmiyyətdə şərin xeyir üzərində təntənəsi hökm sürür.

**Din yox, vicdan yox, insaf yox, namus yox,**
**Xəlqə dəb olmuş bu adət, hər kəs öz keyfindədür.**
**Çoxsı namusın hərifə müftə ehsan eyləyür,**

**Hatəmə eylər şəmatət, hər kəs öz keyfindədür.**
**Hər kimə izhar qilson dərdüvi, yüz döndərür,**
**Məhv olub, yoxdur sədaqət, hər kəs öz keyfindədür** [4, 492].

Dinin rolunu xüsusi qeyd edən şairi kədərləndirən odur ki, indi insanlar dinə də hörmət qoymurlar. Heç kimdən bir xoş sözün eşidilmədiyi, özbaşınalığın hökm sürdüyü bu dövrdə yaşayan həmvətənlərinə üzünü tutan bir çox ziyalılar kimi, insanın mənəvi kamilləşməsində sənətkar istehza ilə deyir:

**Dindən kim mənfəət görmüş, yapuşma dindən,**
**Boş sözə, get, ver nəhayət, hər kəs öz keyfindədür.**
**Dindür aləmləri avarə, sərgərdan qoyan,**
**Fikrini çəkmək nə hacət, hər kəs öz keyfindədür** [4, 492].

Şeirin sonrakı misralarında ölkədə hərc-mərcliyin baş alıb getdiyini, mənəvi-əxlaqi dəyərlərin iflas etdiyini ürək ağrısı ilə qeyd edən şair naxələflərin yaranışını səhv sayır. Ətrafından bixəbər öz kefində olanları kinin, ədavətin mənbəyi, dinin düşməni adlandırır. Yaxşı yamanın fərqini bilməyənin işinin ancaq qətl-qarət olduğunu bildirən şair "hər kəs öz keyfindədür" deyə təəssüf hislərini belə ifadə edir:

**Bilməyən aləmdə heç yaxşı-yəmanun fərqini,**
**Adətidür qətlü qarət, hər kəs öz keyfindədür** [4, 492].

Milli azadlıq ideyalarının təbliği, nadanlığın, mövhumatın tənqidi, zülmə, haqsızlığa etiraz Saqibin ictimai-siyasi motivli şeirlərinin ana xəttini – leytmotivini təşkil edir. Şairi bütün yaradıcılığı boyu müşaiyət edən bu tendensiya doğma vətənə məhəbbət, azad olmaq istəyi, bir də tərəqqi yoluna qədəm qoymuş dövlətin vətəndaşı olmaq arzusundan irəli gəlirdi. "Qalmışdır", "XX əsrin yaratdığı vəhşətə dair", "Bilməz çoxı cəhanda nə şeydür qəzəl-məzəl" və s. əsərlərində biz həmin ideyaların bədii təfəkkür süzgəcindən keçirilmiş poetik inikasını görürük.

Vətənpərvərlik ideyası Saqib poeziyasında aparıcı yer tutur. Hətta məhəbbət lirikasında belə ara-sıra ictimai düşüncələrə yer verən şair vətənin, xalqın taleyi üçün narahatlığını ifadə edirdi. Təbii ki, ictimai həyatda fəal biri olan, dünyagörüşlü, açıq fikirli şəxs ictimai-siyasi proseslərdən kənarda qala bilməzdi. Hər bir vətənpərvər şəxs kimi, o da xalqın, cəmiyyətin həyatında baş verən təbədüllatları diqqətlə izləyir, əsərlərinin başlıca mövzusu edir, öz fikrini açıq bildirirdi. "Dutmış nə içün..." şeirində ifadə olunan fikirlər bu baxımdan maraq doğurur.

**Rəhbərlərimiz bilməyür heç yaxşı-yəmani,**
**Fərqin başa düşmir, eləyür cəhli riayət.**
**Ey əsri-igirmiylə edən fəxr dəmadəm,**
**Əfsanə söz ilə eləmə xəlqi hidayət** [4, 437].

İctimai quruluşun, istilaçılıq siyasətinin tənqid olunduğu bir çox əsərlərində Saqib xalqa vurulan sağalmaz yaralardan, vətən övladlarının

dərbədər olmasından, günahsız yerə zindan həyatı yaşamasından böyük urək yanğısı ilə bəhs edir. Nadanlıq, məhrumiyyət, cəhalətin hökm sürdüyü vətən, onun övladlarının hüquqsuz, ağır yaşayışı vətənpərvər, həssas şairin qəlbini ağrıdır, təəssüf hisslərinin ifadə olunduğu misralarda şair zalımlara olan nifrət və qəzəbini də gizlətmir:

**Bir gögə bax, od dutub, baisi kimdür onun?**
**Rəhbəri bu millətin qan içənə yardür** [4, 101].
**Qan içənə ad qoyub xəlq, kəmal əhlidür,**
**Aləm olub xərabə, gör necə biardür** [4, 101].
**Yəqubə bir deyən yox, bəsdür bu ahü nalə,**
**Min Yusifim düşübdür zindanə hər tərəfdə** [4, 236].
**Ey vay, getdi əldən qəflətdəkən vətənimiz,**
**Əğyar hər tərəfdə, biganə hər tərəfdə** [4, 236].

Saqib də öz vətənini dünyanın qabaqcıl, elm, maarif, mədəniyyətin inkişaf etdiyi ölkələri kimi görmək istəyirdi. Həmvətənlərini azad olmasını arzulayan, heç kimin boyunduruğu altında yaşamasını istəməyən şair bunları görməyəndə kədərlənir və bu kədər onun misralarına süzülərək şairin həssas, təlatümlü, kövrək hisSlərini oxucuya çatdırır.

İctimai mühitin bütün ziddiyyətlərinin, əyintilərinin əks olunduğu "Bilməz çoxı cəhanda nə şeydür qəzəl-məzəl" qəzəlində şairin yaradıcılığı üçün səciyyəvi olan şikayət motivlərinə geniş yer verilmişdir. Sənətə hörmət olunmayan, ziyalı sözünə qiymət verilməyən bir dövrdə yaşadığını bildirən müəllif dövrün mənzərəsini gözlərimiz önündə canlandırır.

**Bilməz çoxı cəhanda nə şeydür qəzəl-məzəl,**
**Şair qoyubdur ad özinə hər keçəl-meçəl.**
**Dana sözinə zərrəcə qiymət qoyan hanı,**
**Xəlqün içində rütbə tapubdur dəğəl-məğəl.**
**Qismət olundı söz qanana xuni-dil müdam,**
**Qanmaz başından açdı töküldi əsəl-məsəl** [4, 151].

Yaşadığı dövrün eyiblərini tənqid edən, ədalətsizliyə, haqsızlığa etirazını bildirən şair ictimai nöqsanların geniş, əhatəli təsvirini verir:

**Yox ehtiramı saliki-həqqün qarışqacə,**
**Təkfir eyləyür onı hər dəm bədəl-mədəl.**
**Biar də olsa, tazə cəvanlar gərək bizə,**
**İş verməyür, zəmanı keçübdür, əfəl-məfəl.**
**Keçmiş zəmanun imdiki vəqtə nə dəxli var,**
**Millət satan yox idi, nə hasil əzəl-məzəl** [4, 151].

Cəmiyyətin ictimai-siyasi problemlərini əks etdirən Saqib sonda fikrini daha kəskin ifadə edərək zəmanə haqqında qəti hökmünü verir.

**Saqib, şəhididür içə hər kimsə bu zəman,**
**Cəllad əlilə zəhrli cami əcəl-məcəl** [4, 151].

Zəmanəsinin bu cür təqdim və tərənnümünə biz Saqibin digər əsərlərində də rast gəlirik. “Vətən gedübdür əlündən, həram ləzzətdür” qəzəlində zülm və istismara “yox” deyən cürətkar bir insan əhvali-ruhiyyəsi ilə qarşılaşırıq.

**Vətən gedübdür əlündən, həram ləzzətdür,**
**Nicat verə vətənə, intiqam ləzzətdür.**
**Viranda düşmənə tiği tərəhhüm etməgilən,**
**Boyanə qırmızı qanə niyam, ləzzətdür** [4, 94].

Bu misralar şairin heç də həmişə ah-nalə etmədiyini, yeri gələndə mübariz bir insan olduğunu bir daha sübut edir. İnsan üçün yaxşılığın nicat olduğunu bildirən müəllif aləm içində təmiz, yaxşı adın ləzzət olduğunu bildirir.

**Yəmanlıq eyləmə, yoxdur yəmanlığun səməri,**
**Kişiyçün aləmara nik nam ləzzətdür** [4, 94].

Cəmiyyətin ictimai-siyasi, sosial bəlalarının əks olunduğu maraqlı sənət əsərlərindən biri olan “Qalmışdur” şeiri də yüksək ideya-bədii məzmunu ilə diqqəti cəlb edir. Şeirin ilk misralarından zəmanəsindən, yaşadığı dövrdən şikayətlənən şair dindən, imandan quruca ad qaldığını bildirır. Elə bir dövrdür ki, insan əqlinə, kamalına qiymət qoyan yoxdur.

**Quru bir ad qalub Qurandən, dini-Mühəmməddən,**
**Ədalət qəbr içində məhv olub, bicanda qalmışdur.**
**İmami-əsrə uyma, ixtiyarun anə tapşurma,**
**İnanmaq olmaz anə, hansı bir peymanda qalmuşdur.**
**Kəmalü əqlü fəhmə zərrəcə qiymət qoyan yoxdur,**
**Kəmalü əqlü fəhmün rütbəsi böhtanda qalmuşdur** [4, 422].

Dövrünün dəyişdiyini, tamam başqa bir zəmanənin gəldiyini bildirən şair haqq söz deyənlərin zindanda çürüdüyünü bildirərək azadlığın olmamasından şikayətlənir.

**Zəmanə çevrilüb bir özgə rəngi ixtiyar etmiş,**
**Sözin həqqin deyənlər guşeyi-zindanda qalmışdur** [4, 422].

Bütün əsər boyu keçmişin həsrəti ilə yaşayan şair yaxşı hər bir şeyin – mənəvi dəyərlərin keçmişdə qaldığını, indi nadanların, hünər sahibi olmayanların at oynatdığını, əql və kamal sahiblərinin isə ortalıqda qaldığını bildirir.

**Sənün fikrün qalubdur huridə, qılmanü Kövsərdə,**
**Mənim çıxmş gözüm bu Azəribaycanda qalmuşdur** [4, 422].

Vətənpərvər şair bir an olsa da vətənin, xalqın taleyini untmur. Elə dövrandır ki, sənətə də hörmət qalmayıb. Sənətə qiyməti nadanlar verir.

Zəmanədən şikayətini aşağıdakı misralarla yekunlaşdıran şair acı gerçəklikləri bir daha bizə izah edir.

**Qəzəl bazarını yıx, de, Füzuli vəqti bitmişdür,**
**Əlifba bilməyən sərdəftəri-irfanda qalmuşdur** [4, 422].

Dövrünün ruhunu, ictimai-siyasi mühitə real münasibəti əks etdirən bu əsərlər həm də müəllifin mövcud qənaət və təsəvvürlərinin poetik süzgəcdən keçirilmiş bədii təcəssümüdür.

Şairin əsrlərində narazılıq, şikayət motivləri öz yerini bəzən öyüd-nəsihətə, yolunu azmışları haqq yoluna qaytarmaq cəhdlərinə verir. Bəzən isə narazılıq o həddə çatır ki, şair insanların düzələcəyinə inamını itirir, dünyanı, insanları yenidən yaratmaq arzusunu, istəyini dilə gətirir. "XX əsrin yaratdığı vəhşətə dair" şeirində gördüyü haqsızlıqları nəzmə çəkən şair müstəbidləri, xalqa qan udduranları tənqid edir, onları bu yoldan çəkindirməyə çalışır.

**Bir aqibətün fikrini qıl, etmə məniyyət,**
**Bihudə yerə eyləmə çox xəlqə əziyyət,**
**Etmək sana bica yerədür gərçü nəsihət,**
**Bəsdür, bu qədər eyləmə qan tökməğə rəğbət** [4, 457].

Ancaq nahaq qanın yerdə qalmayacağını, bir gün intiqam alınacağını bildirən şair öz millətinə zülm edənlərin gec-tez cəzasına çatacağına inamını dilə gətirir. Sovet rejiminin xalqa yaşatdığı fəlakətlərin əks olunduğu bu əsərdə İslam ədəbiyyatında geniş yayılmış "intizari-fərəc" (qurtuluş intizarı) motivi də vardır. "Bu intizar dünyada baş verən ədalətsizliklərdən, haqsızlıqlardan, çirkinliklərdən və qeyri-insani əməllərin çoxluğundan cana doymuş insanların gözlədikləri ülvi bir qəhrəmanın intizarıdır. Gəlişiylə viran qalmış ədalət mülkünü abad edəcək, dünyanı bütün çirkinliklərdən təmizləyəcək bir xilaskarın intizarıdır" [8, 13]. Şairin "qan sahibi" adı ilə qeyd etdiyi xilaskar "Rəsuli-Əkrəmin (s) bizə əmanət olaraq tapşırdığı Əli (ə) övladı, Fatimə (s.ə) balası Mehdi Sahib əz-Zamanın (ə.f) intizarıdır" [8, 14].

**Qadir nəyə oldun, elədün xahi-nəxahi,**
**Öz millətüvə, bil, səni axır dutar ahi,**
**Dutmış vətənin, dust edibdürmi günahi,**
**Yox səndə məgər zərrəyicə xovfi-İlahi,**

**Qan sahibi yoxdur demə, ey qan eləyənlər,**
**Vardur, gələcək aləmi viran eləyənlər** [4, 458].

Vətəni yadlara verən, öz həmvətənlərini yadlara satan insanların nəyin xatirinə bunu etdiklərini anlamağa çalışan sənətkar bu şərəfsizliyi heç cür başa düşə bilmir.

**Satdun vətəni heç nəyə əfsanələr içün,**
**Verdün vətən oğlın ələ biganələr içün,**
**Keçdün şərəfündən kimə divanələr içün?**

**Namusı buraxdun belə peymanələr içün,**

**Qan sahibi yoxdur demə, ey qan eləyənlər,**
**Vardur, gələcək aləmi viran eləyənlər** [4, 458].

Ancaq zalım və satqınlar güman etməsin ki, bu vətən sahibsizdir. Vətəni üçün canından keçməyə hazır olan, onu hər zaman yadlardan qurtarmağa çalışan namuslu övladlar da var.

**Oğlanları vardur vətənün şiri-jəyandur,**
**Vəqtində gələr, gözləyür hökmi, nigərandur,**
**Heç kim onı bilməz gələnün vəqtü haçandur,**
**Tədbir gərək hər işə, məşhuri-cəhandur,**

**Qan sahibi yoxdur demə, ey qan eləyənlər,**
**Vardur, gələcək aləmi viran eləyənlər** [4, 458].

Gələcəyə inamını itirməyən, bu zülmün, istibdadın bir gün bitəcəyinə inanan şair şeiri nikbin sonluqla qurtarır. Bu da onun ictimai-siyasi proseslərin mahiyyətinə vardığını aydın göstərir.

**Bu Saqibə baxma ki, zəmingir olubdur,**
**Qəm-qüssə alub canını, dilgir olubdur,**
**Yox tabü təvanı, qocalub, pir olubdur,**
**Vəqtində görərsən dirilüb şir olubdur,**

**Qan sahibi yoxdur demə, ey qan eləyənlər,**
**Vardur gələcək aləmi viran eləyənlər** [4, 458].

Dərin həyat müşahidəsi nəticəsində şairin gəldiyi qənaət bu idi ki, nadanlığın, cəhalətin hökm sürdüyü bir ölkə tənəzzülə məhkumdur. İnsanların ictimai-siyasi həyata real münasibətini yalnız onların maariflənməsi, yuvarlandıqları cəhalət quyusundan çıxmaqla təmin etmək mümkün idi. Bu yolda isə əsas maneə mövhumat idi. Dövrünün qabaqcıl ziyalıları kimi, Saqib də başa düşürdü ki, heç də, düşünüldüyü kimi, mədəni geriliyin, mövhumatın səbəbi İslam dini deyil, dini fanatizmdir. Buna görə də xalqı mövhumat və cəhalətə sürükləyən din xadimləri onun yaradıcılığında əsas tənqid hədəfləri olmuşdur.

Saqib din xadimlərini kor-koranə tənqid etmir, tənqidinin səbəbini göstərirdi. Çünki həqiqi din xadimləri heç vaxt xalqın cəhalətdə qalmasına, elm, maarif, mədəniyyətdən uzaqlaşmasına razı olmayıblar. Tarixə nəzər salsaq, şairin yaşadığı dövrün – XX əsrin əvvəllərinin ümumi mənzərəsini anladan aşağıdakı faktlara rast gələrik: "Uşaqlar, xüsusən qızları ümumtəhsil ibtidai məktəblərinə cəlb edənlərə qarşı mübarizə aparan mövhumatçı müsəlman ruhaniləri eyni zamanda yeni üsullu məktəblərə qarşı çıxır, onları “İslam ruhuna zidd” hesab edir, müəllimləri ənənəvi təhsil üsulundan əl çəkmələrinə görə günahlandırıb lənətləyirdilər. Lakin onların əksinə olaraq Cənubi Qafqazın ali ruhanilərindən Axund Əbdülsalam Axundzadə, Molla Məhəmməd

Pişnamazzadə, Müfti Hüseyn Əfəndi Qayıbov öz dövrlərində yüksək təhsilli adamlar kimi xalqın maariflənməsinə hər cür şərait yaratmağa çalışır, Qurana, Məhəmməd peyğəmbərin hər bir müsəlmanın biliklərə yiyələnməyə çalışmalı olması barədə vəsiyyətlərinə əsaslanırdılar" [9, 157].

Bu kontekstdən çıxış edərək demək olar ki, Saqib də maarifpərvər şəxs kimi cəmiyyətin həyatında İslam dininin rolunu yüksək dəyərləndirmiş, lakin xalqı cəhalətə sürükləyən yalançı vaizlərə qarşı mübarizə aparmışdır. "Ey satanlar vətəni" şeirində etirazını dilə gətirən müəllif onları xalqın zülm və zillətdə qalmasının başlıca günahkarı kimi qiymətləndirmişdir.

**Min il əfsanə deyib aləmi təkfir elədiz,**
**Millətin yıxdız evin, qoyduz əcəb avarə.**
**Hələ həll etməlisiz məsələyi-meraci,**
**Qonşular uçmağa icad eləyib təyyarə.**
**Vətən övladına təlim elədiz mövhumat,**
**Kimiya elmini qaldırdız əcəb əğyarə!** [3, 29].

Möhkəm dini etiqada malik olan şair ən mütərəqqi din olan İslamdan bu cür istifadəyə rəvac verənlərə qarşı barışmaz mövqedə dayanırdı. Dinin evini yıxmaqda təqsirləndirdiyi din xadimlərinə olan nifrətini gizlətməyən şair hiss və düşüncələrini "Mail oldun sən nə içün bu kəmanəbrulara" qəzəlində bu cür ifadə etmişdir:

**Vaizi-şəhrün inanma, Saqiba, fitvasinə,**
**Din evin viran qoyubdur, uyma bu bədgulərə** [4, 242].

Bütün bunlarla bərabər, bəşəri bir mövzu olan insan, onun sevinci, kədəri, Haqqa, İlahiyə məhəbbəti, cəmiyyətdəki mövqeyi, ona münasibət Saqib poeziyasından da yan keçməmiş, öz bədii həllini tapmışdır. "Şübhə yoxdur ki, insan, onun mənəvi aləmi, hiss və düşüncələri hər zaman sənətin, poeziyanın baş mövzusu olmuş, ən böyük əsərlər, sənət şedevrləri məhz İnsan mübhəmlərinə bədii təfəkkür işığında nəzər salmaq cəhdlərindən yaranmışdır" [6, 35]. Və əlbəttə ki, qəlbində insana sevgi, məhəbbət olmayan kəslər bu sənət əsərlərini yarada bilməzdi. Qəlbi daim məhəbbətlə döyünən, insan mübhəmlərinə həssaslıqla yanaşan, ona sevgisini bildirməklə bərabər mənfi cəhətlərini də göstərməkdən çəkinməyən şair cəmiyyətin problemlərini "İnsanlar" şeirində daha qabarıq ifadə etmişdir. Yaradılmışların ən qiymətlisi olan insanı müəllif öz baxış prizmasından tamam fərqli şəkildə oxuculara təqdim edir.

Yer üzündəki rəzalətlərin səbəbkarı hesab etdiyi insanlar haqqında kəskin fikirlərini özünəməxsus tərzdə ifadə edən şair bu cür naqis əməl sahiblərinə qəzəbini gizlətmir.

**Cəhan mülkini qılmış sərbəsər viranə insanlar,**
**İçərlər su yerinə qanları divanə insanlar.**
**Tökülmiş qanlarə dünyani viran qanə qərq etmiş,**
**Nərm etməyüb, od yağdırur hər yanə insanlar** [4, 421].

Özü hər günaha sahib olduğu halda şeytana lənət oxuyan bu insanlar dünyanı qəm yuvasına çevirmişlər. Hər zaman qorxulu varlıq olan ilanla müqayisədə belə şair üstünlüyü ilana verir. İlan toxunmasan səni vurmaz, nədən bəs insanlar bir-birinə qənim kəsilir, günahsıza zülm edirlər?!

**İlanı vırmason, vırmaz səni, bu söz degül böhtan,**
**Günahi yox, vırursan nişüvi insanə, insanlar.**
**Degül asan, bir insaf etgilən, həmnövi öldürmək,**
**Səni yoldan çıxardub, uyma bu dövranə, insanlar** [4, 421].

Vicdan sahibi olmayanlar zülmləri ilə hətta heyvanları da dilə gətirib. Onlar da öz etiraz səslərini ucaldırlar.

**Bəhayimlər də süzdən hər nəfəsdə etiraz eylər,**
**Bu bəd rəftaruvuz xoş gəlməyür heyvanə insanlar** [4, 421]

Şikayətdən öyüd-nəsihətə keçən şair bu cür insanları iman əhli olmağa çağırır. Lakin öyüd-nəsihətin də faydasız olduğunu düşünüb onların düzələcəyinə inamını itirir. Dərin ümidsizliyə qapilan şair insanlar haqqında olan ictimai və fəlsəfi düşüncələrini aşağıdakı misralarla oxucularına çatdırır:

**Başağrı vermə, Saqib, rəhmə gəlməz Adəm övladı,**
**İşün yoxdur, qoy olsunlar dəli-divanə insanlar** [4, 421].

İnsanlarda milli ləyaqət hissini oyatmağa çalışan müəllifin görmək istəmədiyi digər bir cəhət isə var-dövlət hərisliyidir ki, onun düşüncəsinə görə, insan mənəviyyatını sınağa çəkən, iradəcə zəifləri məğlub edən simu-zər heç kimə xeyir gətirməz. Şər-fitnə və hər cür rəzalətə yol açan var-dövlət hərislərinə "İstər", "Simü zərdədir" , "Ey zər" və s. kimi əsərlərində müəllifin kinayəli, acı gülüşü ibrətamiz nəsihətlərlə də müşaiyət olunur.

**Həqqün kişilikdə, ola bilməz ki, zərün yox,**
**Simü zər ilə doldura cib, şiri-nər istər** [4, 402].
**İt ağzına qızıl pulı ver, canuvı alar,**
**Qul eyləyər səni qızıl ol bəxtəvərdədür** [4, 404].
**Fəda olum sənə, ey simü zər, əman günidür,**
**Əlimi dut, düri-naçizara yixılsam əgər** [4, 405].

Bütün bu əsərlərdə bir ümumi fikir var ki, pula, var-dövlətə görə kimsənin qarşısında əyilmək, başqalarına zülm etmək, haqqı qoyub nahaqı müdafə etmək nəcib insana yaraşan sifət deyil. Var-dövlət o zaman qiymətlidir ki, bir xeyirli işə sərf olunsun. Qan tökülməsinə, başqalarının məşəqqətlərinə səbəb olan, rəvac verən qızılın nə qiyməti ola bilər?! Bəşər övladlarında ən nəcib əxlaqi keyfiyyətləri müşahidə etmək istəyən şair onların var-dövlətə, simü-zərə marağını kəskin ifadələrlə tənqid etməkdən, satira atəşinə tutmaqdan çəkinməmişdir.

Doğrudur, yaradıcılığında dövrdən, zəmanədən şikayət, insanlığın faciəsi, zülmə, haqsızlığa etiraz motivlərinə geniş yer versə də, ümümən ümidsizlik Saqib poeziyası üçün xarakterik olmadığından bir çox əsərlərində bu ictimai

kədərin yerini gələcəyə olan inam hissi tutur və bütün yaradıcılığı boyu onu izləyir. Elə buna görə də milli ideyaların təşəkkülü və xalqa çatdırılması üçün var gücü ilə çalışan, ictimai-siyasi gerçəkliyin real bədii mənzərəsini gözlərimiz önündə canlandıran şairi narahat edən, düşündürən problemlərin təsviri ilə yanaşı, həm də xalqın arzu və istəklərinin bədii, poetik ifadəsi Saqib poeziyasının həmişəyaşarılığını daim təmin edəcəkdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər (1905-1917). Bakı, 2004
2. Səlahəddin Xəlilov. Şərqdə və Qərbdə milli-mənəvi dəyərlər
3. Haşım bəy Saqib. Kim-kimədür. Bakı: Boz Oğuz nəşriyyatı, 1996
4. Haşım bəy Saqib. Divan. Baki: Nurlar, 2009.
5. Tomris Babanlı. Haşım bəy Sağib haqqında, "Elm" qəzeti, 21noyabr 2000
6. Əbdülhəsənov Tofiq. Müasir Azərbaycan şeirində siyasi lirika. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üşün təqdim olunmuş dissertasiya. Bakı, 1998
7. Aydın Məmmədov. Sözümüz eşidilənədək. Bakı,1988
8. Şövqi-didar. Müasir Azərbaycan şeirində Həzrət Mehdi (ə.f). Toplayan Mustafa Quluzadə Əlyar. Təbriz, 2012
9. Azərbaycan tarixi 1900-1920-ci illər. VII cilddə, V cild. AMEA Bakıxanov adına Tarix İnstitutu, Bakı: Elm, 2008

***Narmina Aliyeva***

### Hashim Bey Sagib and socio-political motives in his works

***S u m m a r y***

This article examines the life and works of Azerbaijani poet Hashim Bey Sagib. Author explores the impact of historical processes and socio-political events that took place during the time then the poet lived – the end of $19^{th}$ and early $20^{th}$ centuries – on the work of Sagib. The paper identifies the main objects of criticism of his works on the socio-political motives and reasons for his complaint at the time.

***Нармина Алиева***

### Хашим-бек Сагиб и общественно-политические мотивы в его творчестве

***Р е з ю м е***

В статье говорится о жизни и творчестве азербайджанского поэта Хашим-бека Сагиба. Исследуется влияние исторических процессов и общественно-политических событий, происходивших в эпоху жизни поэта – конец XIX – начало XX вв., на творчество Сагиба. Выявляются основные объекты критики его произведений на общественно-политические мотивы и причины жалобы поэта на время.

# OXUDUQLARINIZ:

**Rafael HÜSEYNOV.** Ötürücülük missiyası ....................................................3

## KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

**Rafael HÜSEYNOV.** Klassik ədəbi abidələrin tekstoloji bərpasında xüsusi yanaşmalar və Baba Tahir dübeytiləri ...........................................................11
**Şəhla ABDULLAYEVA.** Quranın “Yusif” surəsində tərbiyəvi və irfani məqamlar ..........................................................................................34
**Faiq ƏLİYEV.** Ərəbdilli Azərbaycan ədəbiyyatı tarixindən ..........................47
**Gülşən ƏLİYEVA-KƏNGƏRLİ.** Füzulidəki “rindü-şeyda” anlayışının ədəbi-fəlsəfi şərhi ..........................................................................................52
**İlahə HACIYEVA.** Nizami və Çakərin “Leyli və Məcnun” məsnəvilərində oxşarlıqlar və normadan kənarlaşmalar ..........................................................59
**İlahə MƏMMƏDOVA.** Rübai janrı ingilisdilli ədəbiyyatşünasların araşdırmalarında ..........................................................................................69
**İradə MUSAYEVA.** Klassik eşq fəlsəfəsi tarixində ilk roman ......................75
**Nailə MUSTAFAYEVA.** Füzuli və müasirlərinin müxəmməsləri barədə ......83
**Kəmalə NURİYEVA.** İ.Y.Kraçkovskinin yeni ərəb ədəbiyyatı sahəsində tədqiqatları ..........................................................................................99
**Samirə QOCAYEVA.** Amerika şairi Henri Uordsvort Lonqfello yaradıcılığı və Şərq motivləri ..........................................................104
**Elnarə ZEYNALOVA.** “Tuhfətul-İraqeyn” poemasından iki beytin şərhi ..108

## YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

**Nərminə ƏLİYEVA.** Haşım bəy Saqib və onun yaradıcılığında ictimai-siyasi motivlər ..........................................................................117
**Nuranə ƏSƏDULLAYEVA.** Sovet ədəbiyyatında “ideoloji düşmən” obrazını formalaşdıran sosial-siyasi amillər ..................................................131
**Bəxtiyar ƏSGƏROV.** Bədii düşüncədə yazıçı və tarix problemi .................136
**Mahirə HACIYEVA.** Pakistanda ingilisdilli ədəbi mühitin formalaşması ..143
**Nüşabə HÜSEYNOVA.** İnternet ədəbiyyatı – yanaşma bucaqları, münasibətlər sistemi ..........................................................................152
**Sevinc AYAZQIZI.** Ədəbiyyatımız – mənəvi həyatımız ...........................159
**Türkan QƏDİROVA.** Cənubi Azərbaycan demokratik poeziyasında ana dili problemi ..........................................................................167
**Ülviyyə YUSİFOVA.** Abdulla Faruqun şeirlərində humanizm ideyaları ......174